# “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC

## 31 dekabr 2023-cü il tarixinə

## Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun Maliyyə Hesabatları və Müstəqil Auditorun Hesabatı

# Müstəqil Auditorun Hesabatı

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin Təsisçisinə və Rəhbərliyinə:

## Rəy

Bizim fikrimizcə, hazırkı maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin ("Şirkət") 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini BMHS Mühasibat Uçotu Standartlarına uyğun olaraq düzgün əks etdirir.

**Auditin predmeti**

Şirkətin maliyyə hesabatları aşağıdakılardan ibarətdir:

- 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabat;
- həmin tarixdə başa çatan il üzrə mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat;
- həmin tarixdə başa çatan il üzrə kapitalda dəyişikliklər haqqında hesabat;
- həmin tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabat; və
- mühüm uçot siyasəti prinsipləri və digər izahedici məlumatlar daxil olmaqla, maliyyə hesabatları üzrə qeydlər.

## Rəy üçün əsas

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz rəyimizin "Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti" bölməsində əks etdirilir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Müstəqillik**

Biz Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) (MBESŞ Məcəlləsi) uyğun olaraq, Şirkətdən asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk. Biz MBESŞ Məcəlləsinə uyğun olaraq, etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik.

## Maliyyə hesabatlarına görə rəhbərliyin və korporativ idarəetməyə cavabdeh olan şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının BMHS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik Şirkəti ləğv etmək və ya fəaliyyətini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fəaliyyətin fasiləsizliyinə dair məlumatların açıqlanmasına və fəaliyyətin fasiləsizliyi prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Korporativ idarəetməyə cavabdeh olan şəxslər Şirkətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

PraysvoterhausKupers Audit Azərbaycan MMC
Landmark Ofis Plaza III, 12ci mərtəbə, 90A Nizami küçəsi
AZ 1010, Bakı, Azərbaycan
T: +994 (12) 497 25 15, F: +994 (12) 497 74 11, www.pwc.com/az

## Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Bizim məqsədimiz bütövlükdə maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kifayət qədər əminlik əldə etmək və rəyimizin daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək səviyyəsidir, lakin Beynəlxalq Audit Standartlarına uyğun olaraq auditin aparılması zamanı mövcud olan bütün əhəmiyyətli təhriflərin həmişə aşkar olunacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində yarana bilər və fərdi və ya məcmu olaraq istifadəçilərin maliyyə hesabatları əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmək ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Beynəlxalq Audit Standartlarına uyğun aparılan auditin bir hissəsi olaraq, biz audit zamanı peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması riskini müəyyən edir və qiymətləndirir, həmin risklərə qarşı audit prosedurlarını hazırlayır və həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən daha yüksəkdir, çünki fırıldaqçılığa gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, yanlış təqdimat və ya daxili nəzarət sistemində sui-istifadə halları daxil ola bilər.

- Şirkətin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarını işləyib hazırlamaq üçün daxili nəzarət sistemi üzrə məlumat əldə edirik.

- Rəhbərlik tərəfindən istifadə edilən uçot siyasətlərinin uyğunluğunu, habelə uçot təxminləri və müvafiq açıqlamaların münasibliyini qiymətləndiririk.

- Fəaliyyətin fasiləsizliyi prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Şirkətin fasiləsiz fəaliyyət göstərmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və şəraitlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair qənaətə gəlirik. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gəldikdə, auditor rəyimizdə maliyyə hesabatlarındakı müvafiq məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması yetərli olmadıqda, rəyimizdə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və şəraitlər Şirkətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında düzgün təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz korporativ idarəetməyə cavabdeh olan şəxslərə digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar barədə məlumat veririk.

PricewaterhouseCoopers Audit Azerbaijan LLC

Bakı, Azərbaycan Respublikası

7 noyabr 2024-cü il

| *Azərbaycan manatı ilə* | Qeyd | 31 dekabr 2023 | 31 dekabr 2022 |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Tikili və avadanlıqlar | 8 | 208,005,932 | 74,057,721 |
| Verilmiş avanslar | 11 | 35,112,960 | 29,038,715 |
| Qeyri-maddi aktivlər | | 430,114 | 198,833 |
| Təxirə salınmış mənfəət vergisi aktivləri | 21 | - | 343,566 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **243,549,006** | **103,638,835** |
| **Qısamüddətli aktivlər** | | | |
| Mal-material ehtiyatları | 9 | 1,061,368 | 822,266 |
| Ticarət və digər debitor borcları | 10 | 10,961,925 | 8,776,042 |
| Verilmiş avanslar | 11 | 1,145,517 | 330,246 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12 | 34,942,691 | 50,931,833 |
| Sair qısamüddətli aktivlər | 13 | 2,399,314 | 2,738,826 |
| Cari mənfəət vergisi üzrə avans ödənişləri | | 586,296 | - |
| **Cəmi qısamüddətli aktivlər** | | **51,097,111** | **63,599,213** |
| **CƏMİ AKTİVLƏR** | | **294,646,117** | **167,238,048** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 14 | 15,990 | 15,990 |
| Əlavə kapital qoyuluşu | 14 | 237,957,714 | 121,225,920 |
| Bölüşdürülməmiş mənfəət | | 21,508,004 | 15,449,033 |
| **CƏMİ KAPİTAL** | | **259,481,708** | **136,690,943** |
| **ÖHDƏLİKLƏR** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Borc öhdəlikləri | 15 | 9,420,344 | 11,241,642 |
| Gübrə terminalı ilə əlaqəli öhdəlik | 17 | 16,232,463 | 11,725,830 |
| Təxirə salınmış vergi öhdəliyi | 21 | 1,515,758 | - |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **27,168,565** | **22,967,472** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Borc öhdəlikləri | 15 | 1,821,298 | - |
| Ticarət və digər kreditor borcları | 18 | 5,375,363 | 3,450,331 |
| Alınmış avanslar | | 799,183 | 696,945 |
| Cari mənfəət vergisi öhdəliyi | | - | 1,293,705 |
| Digər vergi öhdəlikləri | | - | 2,138,652 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **7,995,844** | **7,579,633** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **35,164,409** | **30,547,105** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **294,646,117** | **167,238,048** |

5 noyabr 2024-cü il tarixində Rəhbərlik adından təsdiqlənmiş və imzalanmışdır.

Taleh Ziyadov
Baş direktor

Rafiq Rəfiyev
Maliyyə direktoru

| *Azərbaycan manatı ilə* | Qeyd | 2023 | 2022 |
|---|---|---|---|
| Gəlirlər | 20 | 49,229,011 | 50,143,443 |
| Agentlik haqları | | 459,650 | 339,856 |
| Sair gəlirlər | | 261,822 | - |
| Maliyyə aktivləri üzrə gözlənilən kredit zərərləri üçün ehtiyatın qaytarılması | 10 | 57,046 | 1,319,744 |
| Əmək haqqı və işçilərlə bağlı digər xərclər | | (17,260,374) | (14,865,383) |
| Yükləmə-boşaltma fəaliyyəti ilə bağlı xərclər | 20 | (8,953,365) | (7,886,253) |
| Köhnəlmə və amortizasiya xərcləri | 8 | (4,142,023) | (3,464,863) |
| Təmir və saxlanma xərcləri | | (3,577,407) | (3,687,453) |
| Mənfəət vergisindən başqa digər vergilər | | (1,198,504) | (806,799) |
| Sosial xərclər | | (996,471) | (1,083,142) |
| Kommunal xərclər | | (977,800) | (834,452) |
| İT və kommunikasiya xərcləri | | (819,640) | (791,086) |
| Sığorta xərcləri | | (739,502) | (723,972) |
| Peşəkar xidmət haqları və konslatinq xidmətləri | | (722,968) | (951,013) |
| Bank komisyon haqları | | (681,150) | (141,338) |
| Tədbirlərlə bağlı xərclər | | (667,655) | (634,688) |
| Sanitariya və ekoloji xərclər | | (515,375) | (480,523) |
| Ezamiyyə xərcləri | | (273,630) | (245,307) |
| Ofis təchizatı xərcləri | | (187,774) | (165,010) |
| Reklam xərcləri | | (129,473) | (134,259) |
| Məzənnə fərqi üzrə gəlir/(zərər) | | (17,786) | 140 |
| Qeyri-maliyyə aktivlər üzrə dəyərsizləşmə xərcləri | | - | (1,940,608) |
| Digər xərclər | | (228,338) | (234,368) |
| **Vergidən əvvəlki mənfəət** | | **7,918,294** | **12,732,666** |
| Mənfəət vergisi xərci | 21 | (1,859,323) | (2,774,477) |
| **İL ÜZRƏ MƏNFƏƏT** | | **6,058,971** | **9,958,189** |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR** | | **6,058,971** | **9,958,189** |

| *Azərbaycan manatı ilə* | **Qeyd** | **Nizamnamə kapitalı** | **Əlavə kapital qoyuluşu** | **Bölüşdürülməmiş mənfəət** | **Cəmi** |
|---|---|---|---|---|---|
| **1 yanvar 2022-ci il tarixinə qalıq** | | **15,990** | **86,000,620** | **5,490,844** | **91,507,454** |
| İl üzrə mənfəət | | - | - | 9,958,189 | 9,958,189 |
| 2022-ci il üzrə cəmi məcmu gəlir | | - | - | 9,958,189 | 9,958,189 |
| Dövlət tərəfindən kapital qoyuluşu | 14 | - | 35,225,300 | - | 35,225,300 |
| **31 dekabr 2022-ci il tarixinə qalıq** | | **15,990** | **121,225,920** | **15,449,032** | **136,690,942** |
| İl üzrə mənfəət | | - | - | 6,058,971 | 6,058,971 |
| 2023-cü il üzrə cəmi məcmu gəlir | | - | - | 6,058,971 | 6,058,971 |
| Dövlət tərəfindən kapital qoyuluşu | 14 | - | 116,731,794 | - | 116,731,794 |
| **31 dekabr 2023-cü il tarixinə qalıq** | | **15,990** | **237,957,714** | **21,508,004** | **259,481,708** |

| *Azərbaycan manatı ilə* | Qeyd | 2023 | 2022 |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Mənfəət vergisindən əvvəlki mənfəət | | 7,918,294 | 12,732,666 |
| Düzəlişlər: | | | |
| Tikili və avadanlıqların amortizasiyası | 8 | 4,142,023 | 3,458,720 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | | 16,727 | 6,143 |
| Maliyyə aktivləri üzrə gözlənilən kredit zərərləri üçün ehtiyatın qaytarılması | 10 | (57,046) | (1,319,744) |
| Tikili və avadanlıqların silinməsi üzrə gəlir çıxılmaqla zərər | | 31,538 | 31,701 |
| Məzənnə fərqləri | | 613,758 | (252,413) |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | **12,665,294** | **14,584,697** |
| Ticarət və digər debitor borclarında (artım)/azalma | | (2,135,330) | 2,691,826 |
| Mal-material ehtiyatlarında artım | | (239,102) | (129,727) |
| Sair qısamüddətli aktivlərdə azalma/(artım) | | 339,512 | (2,644,591) |
| Verilmiş avanslarda (artım)/azalma | | (815,271) | 428,132 |
| Ticarət və digər kreditor borclarında artım/(azalma) | | 1,835,757 | (4,122,320) |
| Vergi öhdəliklərində (azalma)/artım | | (2,138,652) | 1,070,208 |
| Alınmış avanslarda artım | | 102,238 | 264,955 |
| **Dövriyyə kapitalında dəyişikliklər** | | **9,614,446** | **12,215,556** |
| Ödənilmiş mənfəət vergisi | | (1,879,999) | (1,750,090) |
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | | **7,734,447** | **10,465,466** |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Tikili və avadanlıqlar, başa çatdırılmamış tikililər üzrə əlavələr | 8 | (47,464,224) | (18,982,464) |
| Qeyri-maddi aktivlər üzrə əlavələr | | (248,007) | (125,315) |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri** | | **(47,712,231)** | **(19,107,779)** |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Borc öhdəlikləri üzrə daxilolmalar | 15 | - | 5,141,642 |
| Gübrə terminalı üzrə daxilolmalar | | 4,506,633 | 11,725,830 |
| Dövlət tərəfindən kapital qoyuluşu | 14 | 20,000,000 | 35,225,300 |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | | **24,506,633** | **52,092,772** |
| Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | | (517,991) | (96,391) |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | 12 | **50,931,833** | **7,577,765** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | 12 | **34,942,691** | **50,931,833** |